Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) 2022-ci ilin DEKABR AYINDA AÇIQLADIĞI ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

# ÜMUMİ MƏLUMAT



- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2022-ci ilin noyabr ayında orta hesabla **135.7-ə** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi oktyabr ayı ilə müqayisədə **0.1% azalıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **0.3% artıb**.
- Son qiymət azalmasının əsas səbəbləri:

  ✓ Taxıl,

  ✓Ət,

  ✓Süd məhsularında olan qiymət azalmalarıdır.




*Qeyd*: 2022-ci ilin yanvar - noyabr ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Taxıl məhsullarının Qiymət İndeksi noyabr ayında orta hesabla **150.4 bənd** təşkil edib:
  - ✓ 2022-ci il oktyabr ayına nisbətən **1.9 bənd (1.3%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **9.0 bənd (6.3%) artıb.**
- Taxıl məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Rusiya Federasiyasının Qara Dəniz Taxıl Təşəbbüsünə yenidən qoşulması və müqavilə müddətinin uzadılması;
  - ✓ Rəqabətsiz qiymətlər səbəbindən ABŞ-dan idxal tələbinin azalması (qiymətlərin yüksək olması səbəbindən), Rusiyanın ixracının artması;
  - ✓ Qarğıdalı və sorqo qiymətlərinin azalması.



# BİTKİ YAĞLARI



- Bitki yağı Qiymətləri İndeksi noyabr ayında orta hesabla **154.7 bənd** təşkil edib:
  - ✓ oktyabr ayına nisbətən **3.4 bənd (2.3 %) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **29.9 bənd (16.2%) azalıb.**
- Bitki yağları qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Cənub-Şərqi Asiyanın bəzi bölgələrində güclü yağışlar səbəbindən istehsal potensialının azalması;
  - ✓ Palma və soya yağı qiymətlərinin artması.



# SÜD MƏHSULLARI



- Süd məhsullarının Qiymətləri İndeksi noyabr ayında orta hesabla **137.5 bənd** təşkil edib:
  - ✓ oktyabr ayı ilə müqayisədə **1.7 bənd (1.2%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **11.6 bənd (9.2%) artıb.**

- Süd məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Yağsız süd tozları üçün idxal tələbinin azalması;
  - ✓ Tam yağlı süd tozu qiymətlərinin Çindən azalan idxal ehtiyacı səbəbindən azalması.



# ƏT MƏHSULLARI



- Ət Qiyməti İndeksi noyabr ayında orta hesabla **117.1 bənd** təşkil edib:
  - oktyabr ayına nisbətən **1.1 bənd (0.9%) azalıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **4.6 bənd (4.1%) artıb.**

- Ət məhsulları üzrə qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - Avstraliyadan mal-qaranın artan ixrac təklifi ;
  - Braziliyanın mal-qara təklifinin artması .



# ŞƏKƏR



- Şəkər Qiymət İndeksi noyabr ayında orta hesabla **114.3 bənd** təşkil edib:
  - oktyabr ayına nisbətən **5.7 bənd (5.2 faiz) artıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **5.9 bənd (4.9%) azalıb.**
- Şəkər məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - İstehsalçı ölkələrdə məhsul yığımının gecikməsi,
  - Hindistanın ixrac kvotasını azaltması;
- Şəkər məhsulları üzrə qiymət indeksini təzyiq altında saxlayan səbəblər:
  - Şəkər qamışının etanol istehsalında daha çox istifadə ediləcəyi xəbərləri;
  - Braziliyada etanol qiymətlərinin artması.

